**Allahın adı ilə**

İran İslam Resublikasının
Naxçıvandakı Baş Konsulluğunun
Mədəniyyət Attaşeliyi

# Həzrəti İmam Rzanın (ə) həyatına bir baxış



**Şiələrin səkkizinci imamı olan həzrəti imam Rzanın (ə) viladət günü münasibəti ilə bütün müsəlmanları təbrik edirik!**












## Həzrəti İmam Rzanın (ə) həyatı

Həzrəti İmam Rza (ə) 148-ci hicri-qəməri ilinin Zilqədə ayında anadan olmuşdur. O həzrətin künyəsi Əbülhəsən, ləqəbi Rzadır və atası imam Kazim (ə) (183-cü hicri ilində) Bağdad zindanında şəhid olduqdan sonra otuz beş yaşında imamətə çatmışdır. İmam Rzanın (ə) vəfat tarixi haqda ixtilaf vardır; Bəziləri həzrəti imam Rzanın (ə) 202-ci ildə, bəziləri isə 203-cü hicri ilində vəfat etdiyini qeyd etməkdədirlər. Həzrəti imamın (ə) hansı ayda vəfat etdiyi məsələsinə gəldikdə isə, Şeyx Kuleyni və Şeyx Müfid (hansı gündə olduğuna toxunmadan) öz əsərlərində həzrəti İmam Rzanın (ə) Səfər ayında vəfat etdiyini qeyd etmişdirlər. Növbəxti isə, o həzrətin vəfat gününün Səfər ayının sonuncu günü olduğunu qeyd etmişdir. O həzrətin anası Xeyzəran adlanırdı. Bəzilərinin fikrincə, o, Novbə əhalisindən olmuşdur. Adı Ərva, ləqəbi isə Şəqradır. Bəziləri anasının adının Nəcmə, Tüktəm və künyəsinin Ümmül-Bənin olduğunu qeyd etməkdədirlər. ("Əl-Əimmətu isna əşər", c. 2, s. 342.) .Həzrəti imam Rza (ə) 201-ci hicri qəməri ilinə qədər Mədinədə yaşamış, həmin ilin Ramazan ayında Mərv şəhərinə mühacirət etmişdir. O həzrət, 203-cü ilin Səfər ayında şəhadətə yetirilmiş və Xorasanda (Məşhəd şəhərində) dəfn olunmuşdur.3

**İmam Rzanın(ə) fəzilətlərindən bəzi nümunələr**

Həzrəti İmam Rza (ə) da digər məsum imamlar kimi, bütün əxlaqi və insani fəzilətlərin ən ali mərtəbəsinə sahib idi. O həzrəti dostları ilə bərabər, inadkar düşmənləri də mədh etmiş, fəzilət və üstün səciyyələrindən söz açmışdırlar. İbrahim ibn Abbas İmam Rzanın (ə) gözəl əxlaqı barəsində belə nəql edir: "Mən İmam Rzadan (ə) daha üstün bir şəxs görmədim və olduğunu da kimsədən eşitmədim. O, hamı ilə insaf və ədalətlə rəftar edər, heç kəsin sözünü kəsməz, bir möhtacı əliboş qaytarmazdı. Onunla bir yerdə oturanın qarşısında ayaqlarını uzatmaz, ondan əvvəl belini divara dayamazdı. Xidmətçilərinə acı söz deməz və süfrə başına öz xidmətçiləri ilə birlikdə oturardı. Heç vaxt qəh-qəhə ilə gülməz, gecələr az yatar, çox vaxt əhya saxlayar, gecələri ibadət və münacatla keçirərdi. Hamıya yaxşılıq edər və çoxlu sədəqə verərdi. Çox vaxt isə sədəqələri gecə paylayardı." ("Həyatul-imam Muhəmməd Cavad", səh. 37.)





**İmam Rzanın (ə) qulları azad etməsi və onlara yardım etməsi**

Həzrəti İmam Rzanın (ə) mühüm işlərindən biri də qulları azad etmək idi. Rəvayətlərdə deyilir ki, o Həzrət (ə) həyatı boyunca min nəfər qul azad etmişdir. ("Əl-ittihaf bihubbil-əşraf", səh.258.)

Həzrəti İmam Rza (ə) qullara çox yardım edərdi. Abdullah ibn Səlt, bəlxli bir kişidən belə nəql edir: "İmam Rza (ə) Xorasana səfər edərkən onunla birlikdə idim. Yemək zamanı qaradərili və başqa qulları ilə birlikdə süfrə başına oturdu. Mən dedim: "Sənə fəda olum, bəlkə bunlara ayrı bir süfrə ayırasan?"

Həmin şəxs istəyirdi ki, İmam (ə) qara qullarla bir süfrədə yemək yeməsin. İmam (ə) isə onun cavabında buyurdu: "Şəhadət verirəm ki, Allah təkdir. Cəza və əvəz isə əməllərə görə verilir."

Bəli, İmam (ə) süfrə başında oturanda bütün işçi və xidmətçilərini çağırıb onlarla birlikdə yemək yeyərdi." ("Peyğəmbər (s) və Əhli-beytin (ə) əxlaqı", Ustad Baqir Şərif əl-Qürəşi, səh.235.)

**İmam Rzanın (ə) əxlaqından nümunələr**

Tarixçilər imam Rzanın (ə) gözəl əxlaqına aid bir çox nümunələr qeyd etmişlər ki, biz də burada onlardan bir neçəsini misal göstərdik:

**1.** İbrahim ibn Abbas imam Rzanın (ə) əxlaqı barəsində belə nəql edir:

–İmam Rza (ə) heç kimə zülm və cəfa etməzdi; istər dostu olsun, istərsə də düşməni. Hamını təbəssümlə qarşılayardı.

–Heç kimin sözünü kəsməz və qarşı tərəfin sözü qurtarana qədər onu dinləyərdi.

–Onunla bir yerdə oturanın qarşısında ayaqlarını uzatmazdı.

–Onunla bir yerdə oturandan əvvəl belini dayamazdı. Ona ehtiram əlaməti olaraq ondan sonra divara söykənərdi.

–Öz xidmətçiləri və qulamlarına acı söz deməzdi.

–Özünü xidmətçiləri və qulamlarından üstün tutmaz və həmişə onlarla birlikdə süfrə başında oturardı.

–İbadəti uzun çəkərdi. Gecələri az yatar, çox vaxt ehya saxlayar, gecələri ibadətlə keçirər, namaz qılar və Allah-Taalanın kitabını tilvaət edərdi.

Bir möhtacı heç zaman əliboş qaytarmazdı, yoxsullara həmişə ehsan edər, çoxlu sədəqə verərdi. Onlara gecə ikən ehsan edərdi ki, onu tanımasınlar.

**2.** İbadət imam Rzanın (ə) mənəviyyat və təqva ilə dolu həyatının böyük hissəsini təşkil edirdi. İmamın (ə) bəzi şiələri deyirlər: “Hər dəfə o həzrəti görəndə Allah-Taalanın bu kəlamı yadımıza düşərdi:

كَانُوا قَلِيلًا مِّنَ اللَّيْلِ مَا يَهْجَعُونَ

“Onlar (təqvalılar) gecənin az bir hissəsini yatırdılar.”

**3.** İmam Rzanın (ə) ən çox xoşladığı iş yoxsullara yardım etmək idi. O həzrət Xorasanda olarkən “Ərəfə” günü bütün malını yoxsullara payladı. Bunu görən Fəzl ibn Səhl dedi: “Bu, ziyana uğramaqdır.” İmam (ə) buyurdu: “Əksinə, bu qənimətdir. Savab qazandıqların zərər sayılmaz.”

Bəli, Allah-Taalanın yolunda xərc çəkmək ziyan deyil, əksinə, bu, insanı Allah-Taalaya yaxınlaşdıran bir qənimətdir; Elə bir qənimət ki, bütün xeyirlər ondadır.

**Həzrət Xanım Məsumənin (ə) həyatına bir baxış**

Həzrət Fatimeyi-Məsumə (ə) yeddinci imamımız Həzrət Musa Kazimin (ə) qızı, səkkizinci imamımız Həzrət İmam Rzanın (ə) bacısı və doqquzuncu imamımız Həzrət İmam Cavad Məhəmmədtəqinin (ə) bibisidir.

Xanım Məsumənin (ə) atası yeddinci imam həzrət Museyi-Kazim (ə) və anası Nəcmə xatundur. O həzrət 173-cü hicri-qəməri ilinin Zil-qədə ayının 1-də, Mədinə şəhərində dünyaya göz açmışdır. Adı Fatimə, məşhur ləqəbi Məsumədir. Digər ləqəbləri isə belədir: Tahirə, Həmidə, Rəşidə, Təqiyyə, Nəqiyyə, Rəziyyə, Mərziyyə, Səyyidə, Uxtur-Riza.

Yeddinci əsrin sünni alimi İbn Cövzi imam Kazimin (ə) dörd qızını Fatimə adı ilə qeyd etmişdir:

1. Fatimeyi-Kubra;
2. Fatimeyi-Suğra;
3. Fatimeyi-Vusta;
4. Fatimeyi-Uxra.

Qeyd edək ki, Fatimeyi-Kubra həmin “Fatimeyi-Məsumə”dir ki, onun pak qəbri İranın müqəddəs Qum şəhərində şiələrin ziyarətgahına çevrilmişdir.

Fatimeyi-Uxra “İmam bacısı” ləqəbi ilə məşhur olub, İranın Rəşt şəhərində dəfn olunmuşdur. (“Biharul-ənvar”, c. 48, səh. 286 və 317.) 9

Fatimeyi-Vusta isə “Sitti-Fatimə” ləqəbi ilə İranın İsfahan şəhərində dəfn olunmuşdur.

## İrana Səfəri

200-cü hicri - qəməri ilində Məmun Abbasinin israr və təhdidindən sonra imam Rza (ə) Mərv şəhərinə, oradan da yanında Əhli-beytindən heç bir kəs olmadığı halda Xorasana yollandı. İmam Rzanın (ə) hicrətindən az sonra həzrət Məsumə (ə) qardaşını görmək arzusu ilə bir dəstə qohum-əqrəbası ilə Xorasana yola düşür. Keçdikləri bütün şəhərdə camaat onları təntənə ilə qarşılayıb, onlara məhəbbət bəsləyir. O həzrət də böyük bibisi həzrət Zeynəb (ə) kimi qardaşı imam Rzanın (ə) məzlumiyyəti və qəribliyini mömin və müsəlman xalqlara çatdırıb, Abbasi sülaləsinin hiyləgər hökumətinə qarşı müxalifətini bəyan edirdi.

Karvan İranın Savə şəhərinə çatdıqda, dövlət məmurlarının himayə etdiyi bir qrup Əhli-beyt müxalifləri onların kişilərini şəhid edirlər. Bir rəvayətə görə, həzrət Məsuməni (ə) də zəhərləyirlər, qəm-qüssə və yaxud zəhər nəticəsində xəstələnib, Xorasana getməkdən aciz qalır.



## Qum şəhərinə gəlişi

O həzrət Xorasana gedə bilmədiyini gördükdə soruşur: “Savədən Quma nə qədər yol vardır?” Yolun məsafəsindən xəbər tutduqda buyurur: “Məni Quma aparın, çünki atamdan eşitmişəm ki, Qum şəhəri bizim şiələrimizin mərkəzidir.”

Şəhərin ağsaqqalları və alimləri bu sevindirici xəbəri eşitdikdə, o həzrətin pişvazına çıxırlar. Əşəri qəbiləsinin rəisi Musa ibn Xəzrəc o həzrətin dəvəsinin cilovunu tutur və çoxları da Xanımın əyləşdiyi kəcavənin ətrafına toplaşırlar.

Həzrət Məsumə (ə) 201-ci hicri-qəməri ilində, təqribən Rəbiül-əvvəl ayının 23-də müqəddəs Qum şəhərinə daxil olur. Ondan sonra “Mir” meydanında Musa ibn Xəzrəcin evinin qapısı qarşısında kəcavədən enib, onun qonağı olur. O həzrət bu şəhərdə 17 gün qalır və bu müddət ərzində ibadətlə məşğul olur. O həzrətin ibadət etdiyi yerdə bu gün “Beytün-nur” adı ilə məşhur bir mədrəsə yerləşir və hal-hazırda ziyarətgah sayılır.



## Vəfatı

Həzrət Fatimeyi-Məsumə (ə) (201-ci h.q ilində Rəbiüs-sani ayının 10-da qardaşı imam Rzanı (ə) görmədən, qərib ölkədə böyük qəm-qüssə ilə əbədiyyətə qovuşur.

Qum əhli onu dəfn etmək üçün “Babulan” bağına – bugünkü ziyarətgah yerinə aparırlar. Qəbir qazıldıqdan sonra camaat o həzrətin kimin əli ilə dəfn edilməsində çətinliyə düşürlər. Elə bu vaxt qiblə tərəfdən üzlərinə niqab çəkilmiş iki atlı sürətlə camaata yaxınlaşır. Cənazəyə namaz qıldıqdan sonra onlardan biri qəbrin içərisinə daxil olur, digəri isə Xanımın pak cəsədini götürüb ona verir. Hər ikisi Xanımın dəfn mərasimindən sonra heç kimlə danışmadan atlarına minib, oradan uzaqlaşırlar. Onların Allah-Taalanın iki “höccət”i sayılan imam Rza (ə) və imam Cavad (ə) olması ehtimalı verilir. (“Tarixe-Qum”, səh. 213.) Çünki şəriətə görə, məsum şəxs başqa bir məsumun vasitəsilə dəfn olunmalıdır.

Həzrət Məsumənin dəfnindən sonra Musa ibn Xəzrəc onun müqəddəs qəbrinin üstündə öz əlilə qamışdan toxunmuş həsirdən bir kölgəlik (çardaq) düzəldir. 265-ci hicri-qəməri ilində imam Cavadın (ə) qızı həzrəti Zeynəb onun qəbri üzərində ilk dəfə olaraq günbəz tikdirir. (“Məzaratu Əhlil-beyt”, səh. 200.)

Beləliklə, həzrət Məsumənin (ə) müqəddəs qəbri vilayətsevər şiələrin ziyarətgahına çevrilir.


صلوات خاصه حضرت امام رضا علیه السلام
اللهم صل علی علی بن موسی الرضا المرتضی
الامام التقی النقی و حجتک علی من فوق الارض
و من تحت الثری الصدیق الشهید صلاة کثیرا
تامة زاکیة متواصلة متواترة مترادفة کافضل ما
صلیت علی احد من اولیائک
Nagsh.ir


Photo.aqr.ir


ولادت امام رضا (ع) خجسته باد




Photo.aqr.ir